# Azərbaycan dili

1. Verilən xüsusiyyətlər hansı sözə aiddir?
   - Yazılışı və deyilişində üç fərqli məqam var.
   - Yalnız keyfiyyət fərqi var.
   - Üç cingiltili, üç kar samit var.

   A) nurlanmaq
   B) sehrbazlıq
   C) şairlik
   D) çətinlik
   E) nəqqaşlıq

2. Yarandığı nitq hissəsinə görə sıranı hansı söz tamamlayar?
   Kəskinlik, qayğıkeşlik.....
   A) xilaskar B) əzici C) gülünc
   D) gərginlik E) illik

3. Eyler-Venn diaqramına görə uyğunluğu müəyyən edin.



   1. Sözün leksik və qrammatik mənalı hissəsidir.
   2. Ayrılıqda qrammatik mənası olmur.
   3. Sözün mənalı hissəsidir.
   4. Həmişə kökdən sonra gəlir.
   5. Sözlər arasında qrammatik bağlılıq yaradır.

   A) 1,2,3 B) 3,4,5 C) 1,3,5
   D) 2,4,5 E) 1,2,4

4. "Gül" feilinə hansı şəkilçiləri qoşmaq olar?
   1. –lük 2. –ünc 3. –çü
   4. –lü 5. –dür 6. –ər
   A) 1,3,4 B) 1,2,5 C) 2,5,6
   D) 2,4,6 E) 3,4,5

5. Hansı sözün tərkibində iki leksik bir qrammatik şəkilçi var?
   A) pardaqlanmaq
   B) tapdalamaq
   C) uyuşmazlıq
   D) dumanlanmaq
   E) cavanlaşmaq

6. İşarə əvəzliyindən sonra vergül qoyulmalıdır:
   A) O atasını görüb uşaq kimi sevindi.
   B) Bu adam ən çox inandığım adamdır.
   C) O bulağın başında çox məclislər qurulub.
   D) Bu dünya bir qızıl kuzəyə bənzər.
   E) Bu bizdəki kostyumların ən yaxşısıdır.

7. Əvəzliyin mənaca növünün hər birinə aid nümunə olan bəndi müəyyən edin.
   A) hərə, biz, necə, filan, eyni
   B) heç kim, sən, öz, filan, kim
   C) siz, bəzi, bütün, belə, nə vaxt
   D) o, elə, filankəs, neçə, həmin
   E) kimsə, mən, öz, bu, filankəs

8. Cümlələrin birində həm say, həm də zərf işlənmişdir:
   A) Qayanın kənarına bir az da yaxınlaşıb dənizə heyrətlə tamaşa etdi.
   B) Bu saysız-hesabsız ulduzlar gecənin bu aləmində xeyli parlaq idi.
   C) Çoban qoyunları bir-bir yoxlayıb sonra ağıla salırdı.
   D) Bostandakı məhsul bu il xeyli artmışdı.
   E) Ovçu qayanın döşündə bir neçə dağkəli gördü və onlardan birini nişan aldı.

9. Cədvələ uyğun düzgün fikirləri müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | İcbar növ-subyekt başqasına obyekt üzərində hərəkəti icra etməyə məcbur edir. | doğru |
| 2 | Məchul növ-hərəkətin subyekti məlum deyil, obyekt mübtəda rolunda çıxış edir. | yanlış |
| 3 | Şəxssiz növ-subyekti yoxdur və hərəkəti icra edən məlum deyil. | yanlış |
| 4 | Qayıdış növ-subyekt hərəkəti öz üzərində icra edir. | doğru |
| 5 | Qarşılıq-birgəlik növ-hərəkət bir neçə subyekt tərəfindən icra edilir. | doğru |

   A) 1,4,5 B) 1,2,3 C) 2,3,4
   D) 1,2,5 E) 1,3,4

10. Verilmiş nümunələrdən biri mürəkkəb feil ***deyil:***
    A) qane etmək
    B) təyin etmək
    C) kömək edə bilmək
    D) əsib-coşmaq
    E) ələ salmaq

11. *Gözəl olmaq, xəstə olmaq* feillərində *olmaq* köməkçi feilini hansı leksik şəkilçilərlə əvəz etmək olar?
    1. $–lıq^4$ 2. $–dır^4$ 3. $–laş^2$
    4. $–la^2$ 5. $–lan^2$
    A) 1,2 B) 3,4 C) 1,5
    D) 3,5 E) 2,4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

12.Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| | | | |
|---|---|---|---|
| 1 | Getməyir | indiki zamanın inkarı | doğru |
| 2 | Getməzsən | gələcək zamanın inkarı | doğru |
| 3 | Getməyərlər | gələcək zamanın inkarı | yanlış |
| 4 | Getmisən | keçmiş zamanın təsdiqi | yanlış |
| 5 | Getmərsiniz | gələcək zamanın inkarı | yanlış |

A) 1,2,3 B) 2,4,5 C) 2,3,5
D) 1,3,4 E) 1,4,5

13.Verilmiş cümlədə hansı şəkildə olan feillər işlənmişdir?
Çalış, məclisdə elə yerdə otur ki, səni ordan qaldırmasınlar.
A) əmr, xəbər
B) yalnız əmr
C) arzu, vacib
D) yalnız lazım
E) xəbər. lazım

14.“Köçürərmiş” feilinin şəkilçiləri ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. -ür: indiki zaman şəkilçisi
2. -ür: feil düzəldən şəkilçi
3. -ər: gələcək zaman şəkilçisi
4. -ər: feil düzəldən şəkilçi
5. -miş: keçmiş zaman şəkilçisi
6. -miş: imiş hissəciyinin ixtisar forması
A) 1,4,5 B) 2,3,6
C) 1,4,6 D) 2,4,5
E) 3,4,6

15.Hansı cümlədə *isə* hissəciyinin ixtisar forması işlənmişdir?
A) Dodaqların gülsə, qəlbim də gülər.
B) Mən sənə can dedim, sənsə mənə böhtan.
C) Bir adama yaxşılıq eləyirəmsə, mənəvi rahatlıq tapıram.
D) Şəhərin həyatı bezdirsə səni, dumanlı dağların qoynuna çıx gəl.
E) Ağlasan, ağlaram, gülsən, gülərəm.

16. Cümlələrin birində zaman anlayışı bildirməyən feil işlənmişdir:
A) Su gələn arxa bir də gələr.
B) Müəllim dərsi izah edib əyləşdi.
C) M.Müşfiqin nə qədər yazılmalı şeirləri qaldı.
D) Bir yerdə durmaq başqalarından geri qalmaq deməkdir.
E) Gəzdiyin yerləri çox dolanmışam.

17.Klasteri tamamlaya bilən fikirləri müəyyən edin.




1. İsimdən düzəlib.
2. –dır leksik şəkilçidir.
3. Birinci leksik şəkilçi isim düzəldib.
4. Kökü feildir.
5. Üç leksik, bir qrammatik şəkilçisi var.
A) 1,2,3
B) 1,4,5
C) 3,4,5
D) 1,2,4
E) 2,3,5

18.Bədii əsərlərdə fikrin qüvvətləndirilməsinə xidmət edən üslubi vasitə ***sayılmır***:
A) Bu və ya digər əşya və ya hadisənin mühüm əlaməti başqasının üzərinə köçürülür.
B) Sual cümlələri şəklində olsalar da, cavab tələb etmir.
C) Məcazi mənalı təyinlər işlənir.
D) İnsan həyatı ilə təbiət hadisələri qarşılaşdırılır.
E) İnformativ funksiya daşıyan sözlərin işlədilməsi.

19.Hansı sözlər feilin icbar növündədir?
1. azdırmaq 2.düzdürmək
3. bildirmək 4.qurdurmaq
5. dindirmək
A) 1,2,5 B) 3,5 C) 2,3
D) 2,4 E) 1,4,5

20.Təsriflənməyən feillərin ortaq cəhətlərini müəyyən edin.
1. Leksik şəkilçilər vasitəsilə düzəlir.
2. Zaman anlayışı bildirir.
3. İnkar şəkilçisi qəbul edir.
4. Feilin bütün qrammatik məna növlərində ola bilir.
5. Nə? sualına cavab verə bilir.
A) 1,2,3 B) 2,5 C) 3,4
D) 1,4,5 E) 1,3,5

21.Verilmiş cümlədə altından xətt çəkilmiş söz haqqında ***yanlış*** fikri müəyyən edin.
Dağın zirvəsinə az <u>qalmış</u> tufan başladı.
A) -mış keçmiş zaman şəkilçisidir.
B) Məlum növdə olan feildir.
C) Feili bağlamadır.
D) Omonimlik xüsusiyyətinə malik şəkilçi işlənib.
E) Bu cümlədə feili sifət kimi düşünmək olmur.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam

22.Feili sifət işlənmiş bəndi müəyyən edin..
A) Güləyən uşaq
B) Çağırılası qonaqlardır.
C) Qonaqlar gələcək.
D) Növbəti dayanacaq
E) Avtobus dayanacaq.

***Açıq tipli testlər:***

23. “Qaçırdın” düzəltmə feili ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. İndiki zamandadır.
2. İki şəxsdə düşünmək olar.
3. Xəbər şəklindədir.
4. Bir leksik, iki qrammatik şəkilçi var.
5. Əmr şəklindədir.

24.Yazılışında ***səhvə*** yol verilmiş sayları müəyyən edin.
1. İmtahan ayın 15-indədir.
2. Dekabrın 3-də tədbirimiz var.
3. Martın 8-ni bayram edirik.
4. 6-ı 5-ə vuranda otuz edir.
5. 2020-ci il bizə düşərli oldu.

25.Hansı cümlələrdə feilin xəbər şəklinə aid söz ***yoxdu?.***
1. Hamı onun qabiliyyətinə heyrandır.
2. Onu hər kəsdən çox istəyirdi.
3. Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış.
4. Qrammatik qaydaları öyrənməmiş test yazma.
5. Gördüyün dağa nə bələdçi?

26.Verilmiş sxemə uyğun sözləri müəyyən edin.



1. üzləşdirdik
2. yüksəlişimizdə
3. qovuşdurduq.
4. yüklənmişdir
5. məhdudlaşdırmalıyıq

27.Eyler-Venn diaqramına görə uyğunluğu müəyyən edin



a. Cümlənin müstəqil üzvü ola bilir.
b. İsmə aid bütün qrammatik şəkilçiləri qəbul edə bilmir.
c. Təsriflənən feillərlə əlaqələnə bilmir.
d. Şəxs-xəbərlik şəkilçiləri qəbul etmir.
e. Özündən sonra mənsubiyyət şəkilçili söz tələb edir.

***Mətni oxuyun və 28-30-cu sualları cavablandırın.***

Bakı 1806-cı ildə rus imperiyasının tərkibinə daxil oldu və həmin andan etibarən orta əsrlərin yadigarı sayılan qala divarlarından kənarda şəhərin böyüməsi və inkişafı tarixində yeni bir ........

Öz coğrafi mövqeyinə görə orta əsr Bakısı həm möhtəşəm ______ olan dəniz limanı kimi, həm də Rusiyadan İrana gedən ticarət yollarının keçdiyi strateji məntəqə olaraq çox əlverişli mövqeyə malik idi. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində aparılan Rus-İran müharibələri çar hökumətindən Bakı qalasının gücləndirilməsini xahiş edirdi.

28.Birinci abzası hansı ifadə ilə yekunlaşdırmaq olar?

______________________________

______________________________

29. İkinci abzasda boşluğa “Dənizdə gəmilərin dura bilməsi üçün münasib olan kiçik körfəz” mənasını verən hansı söz yazıla bilər?

______________________________

______________________________

30.Mətnin ikinci abzasında məzmuna uyğun olmayan sözü müəyyən edib lazımi ifadə ilə əvəz edin.

______________________________

______________________________

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

## Tarix

31. XIII-XIV əsrlər Azərbaycan memarlıq abidələrinə aid ***deyil:***
A) Bərdə türbəsi
B) Bayıl qalası
C) Olucaytu Xudabəndə türbəsi
D) Təbrizdə Qeysəriyyə bazarı
E) Ramana qalası

32. Kuti və Lullubi dövlət qurumlarının Akkad dövləti ilə münasibətlərinin nəticəsinə aid ***ümumi*** cəhət:
A) Şumer şəhər dövlətlərinin himayədarına çevrilmələri
B) Akkad dövlətinin süquta uğradılması
C) Akkad hökmdarlarının məğlub edilməsi
D) Manna dövlətinin hərbi yardımından istifadə edilməsi
E) Süquta uğrayaraq xırda vilayətlərə parçalanmaları

33. Alban Arşakiləri dövründə Albaniya dövləti üçün xarakterikdir:
1. Varaz Qriqor tərəfindən idarə olunması
2. Siyasi quruluşunun mərkəzləşdirilmiş feodal dövləti olması
3. Mani təliminin yayılması
4. Cavanşir tərəfindən Xəzərlərin məğlub edilməsi
5. Qəbələnin paytaxt kimi fəaliyyət göstərməsi
A) yalnız 5 B) 2,3 C) 2,5 D) 1,5 E) 3,4

34. Xəritədə paytaxtları rəqəmlər ilə işarələnmiş dövlətlərin müvafiq olaraq XI əsrin birinci yarısı (1) və XII əsrin ikinci yarısı (2) tarixləri üçün xaraterikdir:




A) Bütün Azərbaycan ərazisinin vahid halda birləşdirilməsi
B) Paytaxtın köçürülməsi
C) Fəaliyyətlərinin sona çatması
D) Səlcuq hücumlarına məruz qalmaları
E) Zəlzələ nəticəsində paytaxt şəhərin dağılması

35. Atabəylər (Eldənizlər) dövlətinin mövcudluğu dövrünə uyğun gəlir:
A) Gəncənin Qoşa Qala qapılarının hazırlanması
B) I Fəribürzün şirvanşah titulu daşımaqdan məhrum edilməsi
C) Şəmsəddin Eldənizin Arslan şahın atabəyi təyin edilməsi
D) Tamarın Şirvanı Gürcüstana birləşdirmək cəhdinin qarşısının alınması
E) Tiflis müsəlman əmirliyinin ləğv olunması

36. II Göytürk və Xəzər xaqanlıqları üçün oxşar cəhətdir:
A) Musəviliyin dövlət dini elan edilməsi
B) Çindəki Tan sülaləsinin himayə edilməsi
C) Hakim sülalənin Aşina nəslindən olması
D) VIII əsrin birinci yarısında süquta uğramaları
E) Paytaxt şəhərin ərəblər tərəfindən ələ keçirilməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

37. Azərbaycanın XIII əsrin 20-ci illəri üçün xarakterikdir:
1. Cəlaləddinin yürüşünə məruz qalması
2. Ağsunqurilər dövlətinin süquta uğraması
3. Cormoğon noyonun rəhbərliyi ilə monqol hücumunun baş verməsi
4. II Axsitanın Hülakülərin vassalına çevrilməsi
5. Şirvanşahlar dövlətinin Slavyan hücumuna məruz qalması
A) 1,2 B) 2,4,5 C) 2,3 D) 3,5 E) 1,3,4

38. “Yüzillik müharibə” nin Fransanın qələbəsi ilə başa çatmasında rol oynadı:
A) “Qara ölüm” adlanan vəba epidemiyasının yayılması
B) İngiltərədə Al qızılgül və Ağ qızılgül müharibəsinin başlanması
C) XI Lüdovikin mərkəzləşdirmə siyasəti
D) Rekongista hərəkatının başlanması
E) Daimi qoşunun yaradılması və yeni silah olan toplardan istifadə

39. Uyğunluğu müəyyən edin:




A) 1-b; 2-a,c B) 1-a; 2-b,c C) 1-a,c; 2-b
D) 1-b,c; 2-a E) 1-b; 2-b,c

40. Şeyx Cüneyddən fərqli olaraq Şeyx Sultanəli:
A) XV əsrin ikinci yarısında hakimiyyətdə olmuşdur
B) Ərdəbil hakimliyinin rəhbəri olmuşdur
C) Padşah Uzun Həsən tərəfindən Ərdəbildə taxta oturdulmuşdur
D) Şirvana və Dağıstana yürüşlər təşkil etmişdir
E) Ağqoyunlu dövlətinin mövcud olduğu dövrdə fəaliyyət göstərmişdir

41. Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. İlk əkinçilik vərdişlərinin yaranması
b. İstehsal təsərrüfatının mövcud olması
c. Homo sapiens adlandırılan insan tipinin mövcud olması
d. Daş alətlərin cilalanması və deşilməsinin öyrənilməsi
e. Təsərrüfatda kişi əməyinin ön plana keçməsi
A) 1-b; 2-c,e; 3-a; 4-d
B) 1-d; 2-e; 3-b; 4-c
C) 1-a; 2-e; 3-d; 4-b,c
D) 1-c,d; 2-e; 3-a; 4-b
E) 1-b; 2-d; 3-a; 4-c

42. Hadisə və nəticə əlaqəsi ***doğru*** verilmişdir:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | 1917-ci ilin fevralında Rusiyada inqilab baş verməsi | Müvəqqəti hökumətin devrilməsi |
| 2 | Ərzincan barışığının imzalanması | Qafqaz cəbhəsində əməliyyatların dayandırılması, rus qoşunlarının bölgədən tamamilə çəkilməsi |
| 3 | 1917-ci il Oktyabr çevrilişinin baş verməsi | Rusiyada Bolşeviklər tərəfindən sovet hakimiyyətinin qurulması |
| 4 | Cənubi Qafqaz Komissarlığının fəaliyyətini dayandırması | Çar II Nikolayın hakimiyyətdən imtina etməsi |
| 5 | Brest-Litovsk müqaviləsinin imzalanması | Cənubi Qafqaz Seyminin fəaliyyətə başlaması |

A) 1,2 B) 2,3 C) 3,5 D) 2,4 E) 1,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam

43. 1905-ci ilin dekabrında Tehranda inqilabi hərəkatın başlanmasında qığılcım rolunu oynadı:
A) Məşrutənin qəbul edilməsi
B) Tacirlərə qarşı haqsızlıqlar
C) Məclisin çağırılması
D) Xarici məmurların ölkədən qovulması
E) Ali ruhanilərin taxıl möhtəkirliyi

44. Qədim Albaniya dövlətinin tarixi ilə bağlıdır:
A) E.ə IV əsrin əvvəllərində meydana gəlməsi
B) Cənub sərhədlərinin Dəclə və Fərat çaylarının yuxarı axarlarına qədər çatması
C) Makedoniya imperiyası ilə siyasi əlaqələrinin mövcud olması
D) Qul əməyindən istifadə olunması
E) Eranın 20-ci ilində dövlətçiliyinə son qoyulması

45. Mesopotamiya əhalisinin iqtisadi həyatında baş vermiş yeniliklərdəndir:
A) Mixi yazı sisteminin yaradılması
B) Astronomiyada bürclərin qrafikinin tərtib edilməsi
C) Dünyada ilk dəfə sadə cərrahi əməliyyatların aparılması
D) Günəş saatının ixtira edilməsi
E) Daşınmanı asanlaşdıran arabalardan istifadə

46. Xəritədə qara rəng ilə işarələnmiş ərazilərin tarixi üçün ümumi cəhətdir:



1. Makedoniya ordusu ilə mübarizə
2. Roma işğalına məruz qalmaları
3. e.ə II minillikdə yadelli tayfaların yürüşünə məruz qalması
4. e.ə III əsrdə vahid dövlətdə birləşdirilməsi
5. V əsrdə German hücumlarının baş verməsi

A) Yalnız 3 B) 4,5 C) 1,3 D) Yalnız 4 E) 1,2

47. I və II mətndə bəhs edilən şəxslərin fəaliyyəti üçün oxşar cəhətdir:

**Mətn 1**

Bizans feodallarına qarşı mübarizədə Səlcuq sultanından dəstək aldı. Qaracahisar və digər Bizans valilərinin – təkfurların qalalarını bir-birinin ardınca fəth etdiyinə görə Səlcuq sultanı tərəfindən mükafatlandırıldı.

**Mətn 2**

Onun ən böyük nailiyyəti Bizansın Anadolu torpaqlarından qovulması oldu. Dövlətin sərhədləri Egey dənizindən Konstantinopoladək genişləndi. Balkanlara hücum üçün böyük əhəmiyyətə malik olan Gelibolu qalası ələ keçirildi.

A) Paytaxtın köçürülməsi
B) Yeni dövlətin əsasının qoyulması
C) Sultan tituluna sahib olması
D) XIV əsrin birinci yarısında hakimiyyətdə olmaları
E) Səlcuq imperatorluğunun idarə edilməsi

48. Dehli sultanlığı Məmlüklər sülaləsinin hakimiyyəti dövründə:
A) Monqol hücumlarına qarşı mübarizə aparırdı
B) Panipat döyüşündə məğlub oldu
C) Aqra şəhərini paytaxta çevirdi
D) Hərbçilərə qulluq müqabilində pul şəklində maaş verilməyə başlandı
E) Qurlular dövləti məğlub edildi

49. Yustinianın slavyan tayfalarının Balkan yarımadasında məskunlaşmalarına güzəştə getməsinin nəticəsində:
A) Bizansı feodal ara müharibələri bürüdü
B) Səlcuq türkləri ilə mübarizədə müttəfiq qazandı
C) Vikinqlərin qarətçi yürüşlərinin qarşısı alındı
D) Böyük Karl ilə mübarizədə müttəfiq qazandı
E) Bizansda quldarlıq qaydaları feodalizm ilə əvəz olunması sürətləndi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

50. Uyğunluğu müəyyən edin:




A) 2,4 B) 1,6 C) 3,5 D) 2,6 E) 4,5

51. Xubilay xanın hakimiyyəti dövrü üçün xarakterikdir:
1. Cənubi Çinin ələ keçirilməsi
2. Mərkəzi Asiyanın işğalının başa çatdırılması
3. Xarəzmşah Məhəmməd ilə mübarizə
4. Paytaxtın Pekinə köçürülməsi
5. Camuqanın məğlub edilməsi
A) 1,4 B) 1,3,4 C) 4,5 D) 1,2 E) 1,2,5

52. III Xaçlı yürüşünün nəticəsində:
A) Konstantinopol ələ keçirildi
B) Səlahəddin Əyyubi Xaçlıları məğlub etdi
C) İngilis və Fransız krallarının Qüdsü ələ keçirmək istəyi baş tutmadı
D) Latın imperiyası yaradıldı
E) Edessa xaçlılar tərəfindən ələ keçirildi

***Açıq tipli test sualları:***

53. *XIV əsrin sonlarında Azərbaycanda hakimiyyəti ələ almağa çalışan feodallar bir tərəfdən əmirin canişinlərinə qarşı vuruşur,digər tərəfdən öz aralarında mübarizə aparırdılar. Təbriz şəhəri Azərbaycanın açarı hesab edildiyi üçün onun ələ keçirilməsi əsas məqsəd sayılırdı. Yerli feodallar əsas qüvvələri birləşdirmək əvəzinə, bir-biriləri ilə vuruşurdular. Nəticədə Təbriz şəhəri itirildi.*
Mətndə bəhs edilən dövrdən fərqli olaraq Hülakülərin dövründə Azərbaycanda:
1. Təbriz paytaxt kimi fəaliyyət göstərirdi
2. Kəndlilərin bir yerdən digərinə keçməsi qadağan olunmuşdu
3. Ali Monqol xaqanının canişini hakimiyyətdə idi
4. Cəlairilər sülaləsinin hakimiyyəti davam edirdi
5. İqtisadi cəhətdən güclü və mərkəzləşdirilmiş dövlət mövcud idi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

54. Qızıl Ordu dövlətindən fərqli olaraq Teymurilər dövləti:
1. XVI əsrin əvvəllərində süquta uğradı
2. Moskvanı tabe etdi
3. Hülakülər dövləti ilə mübarizə aparırdı
4. Dehli sultanlığını tabe etdi
5. Şeybanilər tərəfindən məğlub edildi

55. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Bakıda ilk qadın gimnaziyasının açılması
2. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin fəaliyyətə başlaması
3. İlk qəza məktəbinin açılması
4. Bakıda ilk Azərbaycan qiraətxanasının yaradılması

56. VIII əsrin birinci yarısına aiddir:
1. Müsəlmanların Sasanilər üzərində parlaq qələbələri
2. Ərəblərin Pireney yarımadasına daxil olması
3. Dəməşqin paytaxt şəhər kimi fəaliyyət göstərməsi
4. Xəlifə Mötəsimin Bizansa qarşı mübarizəsi
5. Bədr döyüşündə müsəlmanları qələbə qazanması

57. Uyğunluğu müəyyən edin:
1. İbrahim ağa Vəkilov
2. Səməd bəy Mehmandarov
3. Əliağa Şıxlinski
a. Çarın yeganə müsəlman yavəri idi
b. Brilliant ilə bəzədilmiş “Georgi silahı” ilə təltif olunmuşdur
c. Hərbi topoqraf kimi fəaliyyət göstərmişdir
d. “Rus artileriyasının tanrısı” adlandırılırdı

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

XV əsrin əvvəllərində Azərbaycanın Teymuri hakimiyyəti altından çıxması və birləşməsi üçün çox əlverişli şərait yaranmışdı. O zaman beynəlxalq mübarizələr meydanında Azərbaycan üçün təhlükə yarada biləcək qüvvə yox idi. Teymurun vəfatından sonra onun işğalçı siyasəti nəticəsində yaranan Teymurilər dövləti tezliklə dağılmağa başladı. Müxtəlif ölkələrdə hökmranlıq edən Teymuri şahzadələri arasındakı ixtilaflar nəticəsində bir sıra əyalətlər bu xanədanın təsir dairəsi altından çıxmış, müstəqillik qazanmışdı. Teymurilər arasındakı feodal hərc-mərcliyi və hakimiyyət uğrunda mübarizə davam edirdi. Bu vəziyyət Azərbaycanda da hökm sürməkdə idi.

58. Mənbədə bəhs feodal-hərc mərcliyi və hakimiyyət uğrunda mübarizə həbsdən azad olunmasına şəraiti yaratmış iki şəxsin adını qeyd edin:

59. Mənbədə bəhs olunan tarixi şəraitin Azərbaycan üçün nəticələrini müəyyən edin: (Azı bir nəticə)

60. Tarixi biliklərinizə əsasən Azərbaycanda mənbədə bəhs olunan hakimiyyət uğrunda mübarizə dövründə mövcud olan dövlətləri qeyd edin:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

## Ədəbiyyat

61. Füzulinin “Leyli və Məcnun” əsərində Məcnun obrazına aid ***edilə bilməz***.
A) Sevdaya düşdüyü üçün cəmiyyət tərəfindən “Məcnun” adlandırılır.
B) Cəmiyyətə müxalif mövqedə dayanır.
C) Dərdini ayla, şamla, buludla, dəvə ilə bölüşür.
D) Həyata baxışı dövrün insanlarından fərqlidir
E) Hər kəsdən qaçaraq təbiətə üz tutur.

62. Aşıq yaradıcılığı ilə bağlı ***səhv*** fikri müəyyən edin.
A) Gəraylının qafiyə quruluşu qoşma ilə eynidir.
B) Aşıqlar qədim dövrlərdə *dədə, ozan, varsaq,* adlandırılırdı.
C) Qoşmada bəndlərin sayının tək olması onun forma əlamətlərindəndir.
D) Aşıq yaradıcılığının məhsulu olan “*Şah İsmayıl*” qəhrəmanlıq dastanıdır.
E) Məhəbbət dastanları ustadnamə ilə başlayır.

63. “Kitabi-Dədə Qorqud” eposundan verilən bu nümunə kimin dilindən deyilir?
*Qara bulud dediyin sənin taleyindir. Qar ilə yağmur dediyin sənin qoşunundur... Qalanın yoza bilmirəm, Allah yozsun.*

A) Qaragünə
B) Qazan
C) Şöklü Məlik
D) Aruz
E) Qaraca Çoban

64. İntibah dövrü Azərbaycan ədəbiyyatı ilə bağlı doğru fikri müəyyən edin.
A) Q.Təbrizi Təbriz zəlzələsinə iki poema həsr etmişdir.
B) Bu dövr ədəbiyyatımız yalnız ərəb dilində yaranırdı.
C) Azərbaycan epik şeirinin tarixi XII əsrdən başlayır.
D) İdeya baxımından fars məfkurəsini əks etdirən əsərlər yazılırdı.
E) Əhməd Yəsəvinin “Divani hikmət” əsəri türk dünyasının ilk ensiklopediyası sayılır.

65. Xaqani Şirvaninin “Gənclərə nəsihət” əsərinə aid fikirlərdən biri ***yanlışdır***.
A) Dostun yalnız cənnət ağacını qırdığında, onu tənbeh edərək yolundan döndərmək məsləhət görülür.
B) Şair ağılı ən üstün ustad kimi qiymətləndirir.
C) Dostu qovanlardan uzaq olmaq tövsiyə olunur.
D) Nadan insanın tərifinə uymaq olmaz.
E) Kiçik adamlara nəvaziş göstərmək təbliğ edilir.

66. N. Gəncəvinin "Yaralı bir uşağın dastanı" əsəri ilə bağlı ***səhv*** fikri müəyyən edin
A) Bu mənzum hekayədə ağıllılıq cövhəri olanın gövhəri parıldayar fikri vurğulanıb.
B) Yaralı uşağın atası sonda nəsihət verir, dostlar səhvini anlayır.
C) Sonda müəllifin adı çəkilir, lakin özünə müraciət yoxdur.
D) Əsərdə hər dövr üçün aktual olan ibrətamiz bir fikir irəli sürülmüşdür.
E) Əsərdə həyat hadisəsi təhkiyə yolu ilə əks etdirilir.

67. Bunlardan biri Ş.İ. Xətayinin "Dəhnamə" və M. Füzulinin "Leyli və Məcnun" poemaları üçün ortaq cəhət sayıla bilər:
A) N. Gəncəvi ənənələri əsasında qələmə alınması
B) Tərənnüm əsasında yazılması
C) Saray ədəbiyyatının təsiri əsasında yazılması
D) Faciəvi sonluqla bitməsi
E) Həzəc bəhrində yazılması

68. Klasteri tamamlayan fikirləri müəyyən edin.




1. Zəmanə hökmdarlarına meydan oxunur.
2. İnsanın Allahla, maddi-mənəvi aləmlə bir olması fikri qabardılır.
3. İnsanı şərh etməyə çalışanlara lal olmaq barədə xəbərdarlıq edilir.
4. Müəllif Qüreyş oymağından, haşimilərdən olduğunu qürurla bəyan edir.
5. İnsanı mənəvi yüksəkliklərə qaldıran ilahi, saf məhəbbət tərənnüm edilir.

A ) 2,3 B) 1,2,5 C) 2,4 D) 1,5 E) 1,3,4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam

69. Şeir parçasının ikinci misrasında işlənmiş bədii təsvir vasitəsini və onun mətndəki rolunu müəyyən edin.
*Ey bu gün cahana gələn körpələr,*
*Günəş salamlayır taleyinizi!*
A) Metonimiyadır, fikri daha təsirli vermək üçün Günəş adı onunla əlaqəli başqa sözü əvəz etmişdir.
B) Metafordur, insana xas xüsusiyyət Günəşin üzərinə köçürülmüşdür.
C) Təşbehdir, Günəşin əhvali-ruhiyyəsi insanın hətrəkətinə bənzədilmişdir.
D) İnversiyadır, ahəngdarlıq yaratmaq məqsədilə söz sırası qəsdən pozulmuşdur.
E) Epitetdir, poetik fikri qüvvətləndirmək məqsədilə təyin edən bədii ifadədən istifadə olunmuşdur.

70. Bənd haqqında verilən fikirlərdən hansı doğrudur?
*Xəstə Qasım qalıb naçar,*
*Bu sirri bəs kimlər açar?*
*Gələn qonar, qonan köçər,*
*Hey salarsan talan dünya.(Xəstə Qasım)*
A) Bayatıdır.
B) Qoşmanın son bəndidir.
C) Gəraylının ilk bəndidir.
D) Qoşmanın ilk bəndidir.
E) Gəraylının son bəndidir.

71. Fikirlərdən biri N. Gəncəvinin "İskəndərnamə" əsərindəki İskəndər obrazına ***aid deyil***
A) Peyğəmbərlik səviyyəsinə yüksəlir və dünyanı dolaşır.
B) Niqumaşın Ərəstu ilə bağlı vəsiyyətinə əməl edir.
C) İskəndər ondan kömək uman tayfanı yəcucların hücumundan qorumağı bacarmır.
D) İskəndər əhalisi dindar olan, dürüstlük yolundan şaşmayan şəhərin əhalisinə peyğəmbərliyini bəyan etmir.
E) İskəndər kəyan adətinə hörmət göstərirdi.

72. Füzulinin "Söz" qəzəli haqqında doğru fikri müəyyən edin.
A) Şair əsərdə qəzəl janrına da böyük dəyər verir.
B) Lirik qəhrəmanın birinci misradan sona kimi ah-naləsi kəsilmir.
C) Müəllif bu əsəri imtahan hesab edir, çünki tarixi qədim, bəhri isə qısadır.
D) Söz insanı diriltməyi bacaran bir vasitə kimi qiymətləndirilir.
E) Şeir "Dəhnamə" poeması ilə eyni bəhrdə yazılmışdır.

73. “Basatın Təpəgözü öldürduyü boy”la (“Kitabi-Dadə Qorqud” eposu) bağlı ***uyğunsuzluğu*** müəyyən edin
A) Qapaqqan kişi – iki oğlu var idi, birini Təpəgözə vermişdi, növbə o birinə çatanda Basatdan kömək istəyir.
B) Təpəgöz – Pəri anasının barmağına keçirdiyi üzüyün sayəsində bədəninə ox batmaz, qılınc kəsməzdi.
C) Qıyan Səlcik – Təpəgöz tərəfindən öldürülür.
D) Basat – Hamı onu yolundan döndərməyə çalışır, Qazan “mən igiddən artıq olmazsan” deyir.
E) Aruz qoca – Ət topasından çıxan uşağı Basata yoldaş olsun deyə Bayandur xandan istəyir.

74. Dastana aid hansı xüsusiyyət nağıl janrına aid ***edilə bilməz***?
A) hadisələrin təsvirinə yer verilməsi
B) epik növə daxil olması
C) qədim janrlardan biri olması
D) aid olduğu növə müəllif müdaxiləsinin mümkün olması
E) nəzmlə nəsrin vəhdət təşkil etməsi

75. “Dərzi şagirdi Əhməd” nağılı ilə bağlı verilmiş hadisələrdə hansı rəqəmlərin yerini dəyişsək, ardıcıllıq bərpa olunar?
1. Şah Abbasın Əhmədi öldürmək istəməsi.
2. Pəri Soltanın Qaravaşın sözlərindən sonra görməzdən Əhmədə aşiq olması.
3. Əhmədin iyirmi oğlanla iyirmi qızı bir-birindən ayırıb suala doğru cavab verməsi
4. Firəng padşahının Şah Abbasın qızı Pəri Soltanı oğluna istəmək üçün elçi göndərməsi
5. Firəng padşahının adamları gedəndən sonra Şah Abbasın Əhmədi döydürüb yenidən zindana saldırması.
A) 2 《》 3 B) 3 《》 4
C) 1 《》 2 D) 2 《》 4
E) 1 《》 5

76. Doğru fikri müəyyən edin.
A) Süjet və kompozisiya daha çox lirik əsərlərlə bağlı olan anlayışlardır.
B) Forma məzmuna nisbətən dəyişkən, məzmun formaya nisbətən sabitdir.
C) Kulminasiya hadisələrin ən gərgin nöqtəyə çatdığı hissədir
D) Kompozisiya süjetə daxildir.
E) Lirik ricət yer və məkanın təsviridir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.meBirlikTeam

77. Ş.İ. Xətayinin “Dəhnamə” əsərinə aid edilmiş fikirlərdən biri doğrudur:
A) Aşiqin ilk məktubunu Məşuqəyə Huş aparır.
B) Məclisdə gördüyü qıza vurulan aşiqin həyatı tamamilə dəyişir.
C) Hadisələr müəllifin dili ilə danışılır.
D) Əsərdə səbir və iradə sayəsində məqsədə çatmağın mümkünlüyü öz əksini tapmışdır.
E) Əsərdə Məşuqənin mənəvi gözəlliyinə geniş yer verilsə də, zahiri gözəlliyinə diqqət yetirilmir.

78. “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”la bağlı düzgün fikirləri müəyyən edin.
1. Uruz oğulun atadan öyrənməli olduğunu Qazana bildirir.
2. Qazan oğlunun qızıl dəstəkli qamçısını tapdığında dustaq olduğunu yəqin edir.
3. Uruz atasının sözünə sona kimi əməl edir.
4. Burla xatun Qazanla birlikdə döyüş meydanına girir.
5. Məclisdə Uruzun verdiyi cavab Qazana yeni qərar qəbul etməyə səbəb yaratmır.
A) 1,2,4 B) 2,5 C) 1,2,3 D) 3,5 E) 1,3,4

79. “Çahargah əfsanəsi” əsəri ilə bağlı ***uyğunsuzluğu*** müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. Alim öz əməlləri ilə xalqın rəğbətini qazanıb. | 4. Şah Alimin cavabını nankorluq hesab edir. |
| 2. Əhali alimi şahın tapa bilməyəcəyi bir yerdə gizlədir. | 5. Karvan başçısı yalnız şərtini qəbul etdiyində alimin də səfərə qatıla biləcəyini deyir. |
| 3. “*Sən öz əllaməliyinlə xalqı aldadırsan”* sözləri vəzirə aiddir. | 6. Vəzirə sualları hazırlaması üçün üç gün möhlət verir. |

A) 1,4,6 B) 2,3,4 C) 3,4,6
D) 1,5,6 E) 3,5,6

80. “Xan sarayı” əsəri ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Xan ustanın əvvəlcə əllərini kəsdirir.
B) Xan ustanın sənətinə qiymət vermir.
C) Sarayın tikilməsi ilə bağlı mahir usta şərt qoyur ki, ona ağırlığınca qızıl versin.
D) Xan mahir ustanı öldürtdürür.
E) Şəki xanı ustadan dünyada tayıbərabəri olmayan saray tikməsini istəyir.

81. Nöqtələrin yerinə uyğun olan fikri müəyyən edin
*M. Füzulinin "Söhbətül-Əsmar" əsəri poemadır. Çünki...*
A) ahəng, ölçü, qafiyə kimi məsələlərə yer verilmir.
B) real həyat hadisəsinə müraciət olunur.
C) şöhrətpərəstlik, mənəmlik tənqid olunur.
D) həyat hadisələri az təsvir edilir, tərənnümə üstünlük verilir.
E) həyat hadisələri, obrazların təsviri üstünlük təşkil edir.

82. Təmsil haqqında ***səhv*** fikri müəyyən edin.
A) Satirik xarakterli tərbiyəvi ədəbi əsərdir.
B) Təmsildə təbiət cisimləri və heyvanlar şəxsləndirilir.
C) Təmsildə əxlaqi, nəsihətamiz fikirlər təbliğ olunur.
D) Təmsillərdə əfsanələrdən fərqli olaraq alleqoriyaya yer verilmir.
E) Təmsil əsasən nəzmlə yazılır, təhkiyəyə əsaslanır.

***Açıq tipli test sualları:***

83. Cümləni hansı fikirlərlə tamamlamaq ***olmaz***?
*M. Füzulinin "Məni candan usandırdı ..." qəzəlində Lirik qəhrəman ...*
1. əğyar aralarına girdiyindən sevgilisinə qovuşa bilmədiyini bəyan edir.
2. onu tənə edənlərin sevdiyini gördüyündə utanıb-utanmayacağını sual edir.
3. eşqə düşdüyu üçün ağlının əldən getdiyini bildirir.
4. məşuqənin bəd-nəzərdən uzaq olmasını arzulayır.
5. Sevdiyinin onun dərdinə çarə etməməsinin səbəbini onu xəstə hesab etməməsində görür.

84. Yanıltmaclarla bağlı doğru fikirləri müəyyən edin.
1. Səs oyunu üzərində qurulur.
2. Satirik və yumoristik məzmuna malik olur.
3. Həm nəzm, həm də nəsr şəklindədir.
4. Folklorun epik növünə aiddir
5. Qafiyələnməsi gəraylı ilə eynidir.

85. " Ağıllı uşaq" nağılında Əhməd xanın şərtlərinə əməl edib suallarına cavab verdikdən sonra
1. kəndin bütün vergiləri ləğv olunur.
2. kəndə və camaata toxunulmur.
3. Əhmədə xanın sirrini vermiş çobana xəzinənin yarısını bağışlayır.
4. xan Əhmədin ağıl və fərasətinə heyran qalaraq ona xəzinə bəxş edir.
5. məhbus qocalar zindandan azad olunur.

86. Nöqtələrin yerinə uyğun gələn düzgün fikirləri müəyyən edin
*Nizami Gəncəvinin "Sultan Səncər və qarı" mənzum hekayəsindəki qarı...*
1. darğanın təhqirlərinə məruz qalmasından şikayətlənir.
2. hökmdara yalnız öz şəxsi problemlərindən danışır.
3. Sultan Səncəri zalım, mərhəmətsiz adlandırır.
4. hökmdarın göstərişi ilə işgəncəyə məruz qaldığını söyləyir.
5. Sultan Səncəri ədalətli olmağa çağırır.

87. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. Altı məclisdən ibarətdir.
b. Qədim ərəb əfsanəsi əsasında qələmə alınıb.
c. Epik şeir də adlandırılır.
d. Məhəbbət mövzusundadır.
e. Məsnəvi şəklində yazılmışdır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

***Sizə təqdim olunmuş nümunəni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

Bir şəxs hər kəsin içərisində Ömər Xəyyamı təhqir etməyə başlayır:

- Sən kafirsən! Sən əyyaşsan! Səfil insansan!

Ömər Xəyyam isə bu təhqirlərə cavab olaraq yalnızca gülümsəyir. Kənardan çox bahalı və dəbdəbəli geyinmiş bir şəxs baş verənləri izləyirdi. O, Xəyyamdan soruşur:

- *Sən bu təhqirlərə necə dözürsən? Məgər sən qəzəblənmirsən və yaxud incimirsən?!*

Ömər Xəyyam yenə gülümsəyir və deyir:

Mənimlə gedək.Varlı şəxs onun arxasıyca tozlu otağa daxil olur.

Xəyyam şamı yandırır və onun işığında sandıqdan
nimdaş bir libas çıxarır. O həmin libası varlı əyana verir və deyir:

-Bunu geyin, yoxla.

Əyan libası götürür, baxır və heyrətlə deyir:

- Mən bu kirli, nimdaş libası necə geyinim?! Görmürsən, mən səliqəli şəkildə geyinmişəm?! Sən isə deyəsən, ağlını itirmisən.

O, libası Xəyyamın üzərinə atır. Ömər Xəyyam deyir:

- Bax görürsən, sən nimdaş libası qəbul etmək istəmədin. Özünə layiq görmədin. Eynən sənin kimi, mən də ünvanıma səsləndirilən, mənə yönləndirilən ifadələri qəbul etmirəm...

88. Əsərin aid olduğu ədəbi növü müəyyən edin və növə aid ən azı bir fikir yazın.

89. Əsərdə qoyulan problemi və həlli yolunu müəyyən edin.

90. Kursivlə verilmiş hissənin bədii sual olub-olmadığını müəyyən edin və əsaslandırın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BilikTeam1